Ədəbiyyat QƏZETİ

# Elxan Cəfərov - 60



Tanınmış qələm dostumuz, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, şair-publisist, filosof Elxan Orxan oğlu Cəfərovun 60 yaşı bu günlərdə tamam olur.

Rus və Azərbaycan dilində yazıb-yaradan Elxan Cəfərovun şeirləri ilə birinci dəfə tanış olan oxucu elə ilk andan onun yaradıcılığına biganə qala bilmir, hiss edir ki, bu şeirlər dünyanın ümumi ahəngini görüb dərk etməkdə ona yaxından kömək edir.

E.Cəfərovun rus dilində yazdığı şeirlər onun istək və arzularının, xatirələrinin, fəlsəfi, sevgi düşüncələrini ifadə etdiyi halda, Azərbaycan dilində olan əsərləri daha çox milli adət-ənənələrimiz, insanın doğma yurd, vətən, ailə qarşısındakı borc hissindən söhbət açır. Müstəqil dövlətimizin bərqərar olunmasından duyulan qürur hissi, torpaq itkilərimiz, ölkəmizə edilən hərbi təcavüzün pislənməsi sülh və əmin-amanlığın tərənnümü onun şeirlərinin başlıca mövzularıdır. Onun şeirlərinə bəstələnmiş bir çox mahnılar tanınmış müğənnilərin ifasında səslənməkdədir.

E.Cəfərov hazırda Maliyyə Nazirliyində və Heydər Əliyev adına Azərbaycan-Qazaxıstan Dostluq Birliyində şöbə müdiri kimi fəaliyyət göstərir.

Azərbaycan Yazıçılar Birliyi Elxan müəllimi 60 illik yubileyi münasibətilə təbrik edir, ona uzun ömür, xoşbəxtlik və yeni-yeni yaradıcılıq uğurları arzulayır.

**Azərbaycan Yazıçılar Birliyi**